**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**HÜSEYNOV SƏBUHİ TAHİR OĞLU**

# MÜASİR ŞƏRAİTDƏ İSTEHLAK MALLARI ÜZRƏ XARİCİ TİCARƏTDƏ İDARƏETMƏNİN İQTİSADİ-TƏŞKİLATİ ASPEKTLƏRİ

**İxtisas:** 5312.01 - "sahə iqtisadiyyatı"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Gömrük işi və beynəlxalq ticarət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Aydın Hidayət oğlu Səmədov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, dosent
**Vəliyev Akif Həmzə oğlu**
iqtisad üzrə fəlsəfə doktoru
**Qurbanov Aqil Abid oğlu**

**Aparıcı təşkilat:** Azərbaycan Kooperasiya Universiteti

Müdafiə 22 iyun 2018-ci il saat 14.00-da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmu. Dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ - 29, Bakı şəhəri, Nizami rayonu, 8-ci köndələn, III mərtəbə, Akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat 21 may 2018-ci ildə göndərilmişdir

**FD.04014 Dissertasiya Şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru V. R. Rzayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Bazar iqtisadiyyatının formalaşdığı şəraitdə xarici ticarət əlaqələri milli iqtisadiyyatın bütün sektorlarının və sahələrinin qarşılıqlı əlaqəsini şərtləndirir. Bu proseslərdə təkrar ictimai istehsal proseslərinin və ümumilikdə milli iqtisadiyyatın balanslı və səmərəli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Həmin proseslərdə müxtəlif aspektdə idarəetmə formalarından istifadə olunur və bu idarəetmə prosesləri iri həcmdə materiallar, maliyyə, texniki resursların ölkələrarası hərəkətini əhatə edir.

Xarici ticarət əlaqələrinin formalaşması və təşkilinə əsas fəaliyyət istiqaməti xarici ticarətlə bağlıdır və bu sahə özündə geniş çeşiddə mal və xidmətlərin digər ölkələrə ixrac-idxal əməliyyatlarını birləşdirir. Xarici ticarət əlaqələri və xarici ticarət fəaliyyəti istənilən ölkənin kifayət qədər mürəkkəb olan fəaliyyət sahələrindən hesab olunur və bu sahələrin hesabına ökələrin dünya ticarəti proseslərində iştirakı təmin edilir.

Müasir dövrdə, dünya ölkələrinin qarşısında duran aktual problemlərdən biri də dünya bazarlarında rəqabət qabiliyyətliliyi ilə fərqlənə bilən müəyyən mal və xidmətlərin istehsalın və göstərilməsinin təşkilidir. Bu məqsədlə ölkənin təbii, iqtisadi və istehsal imkanlarından, həmçinin infrastruktur potensialından maksimum səmərəli istifadənin təşklili vacib məsələlərdəndir. Belə tədbirlər sırasında ixrac potensialının gücləndirilməsi, onun strukturunun və çeşidlərinin genişləndirilməsi, keyfiyyətli ixracyönlü məhsulların istehsal olunması, ixrac coğrafiyasının optimallığının təmin edilməsi və beynəlxalq səviyyədə ticarət əlaqələrinin gücləndirilməsi üzrə mütərəqqi, məhsuldar xarici iqtisadi əlaqələrə nail olunması daha çox diqqət çəkirlər.

Bu tədbirlərin hazırlanması və həyata keçirilməsi proseslərində, o cümlədən istehlak malları üzrə xarici ticarətin idarəetmə sisteminin müasir dövrün tələblərinə adekvat təkmilləşdirilməsi və yenilənməsi vacib məsələlərdəndir. Şübhəsiz, bu mürəkkəb problemin həllində dövlətin fəal iştirakı olmadan müsbət nəticələr əldə etmək qeyri-mümkündür. Dövlət fəal olaraq xarici ticarət əlaqələrinin inkişafı üçün

güclü qanunvericilik bazasının formalaşdırılması, işlək müxanizmlərin yaradılması və tətbiqi, bu sahədə stimullaşdırıcı tədbirlərin görülməsi ilə məşğul olmalıdır.

Qeyd edək ki, xarici ticarət əlaqələrinin genişləndirilməsi ilə əlaqədar olaraq ölkənin beynəlxalq əmək bölgüsü sistemində və əmtəə bazarlarında maksimum səmərəli ixtisaslaşması üçün tədbirlərin genişləndirilməsini, dünya ticarətindəki sistemində mənfi təsirlərdən milli iqtisadiyyatın qorunması və Azərbaycanlı istehsalçıların – ixracatçıların dünya bazarlarında möhkəmləndirilməsini tələb edir. Belə ki, müasir dövrdə Azərbaycan Respublikasının xarici –iqtisasdi siyasəti modelinin əsas xüsusiyyətlərindən biri, ilk növbədə ixracyönlü mal və xidmətlərin çeşidini genişləndirmək və həcmini artırmaq, eyni zamanda idxalın məhdudlaşdırmaqla ixrac və idxal arasındakı balansın optimallaşdırılmasıdır. Heç də təsadüfi deyildir ki, ölkəmizin xarici ticarət balansı uzun illərdir sabit olaraq müsbət saldo nümayiş etdirir. Amma, sirr deyildir ki, bu müsbət saldonun əldə edilməsi əsasən neft sektorunun, neft- qaz ixracının hesabına formalaşmışdır. Əgər, xarici ticarət dövriyyəsinin strukturuna və balansına daha dərindən yanaşdıqda görmək olar ki, istehlak malları üzrə idxal- ixrac əməliyyatlarının struktrunda heç də müsbət balans ölkəmizin tərəfində deyildir. Belə ki, istehlak malları üzrə ixrac-idxal əməliyyatlarının strukturunda idxal ixracı üstələyir, yəni mənfi saldodur. Bütün bunlar, xarici ticarət üzrə fəaliyyətin daha səmərəli istiqamətlərinin təşkilini, xüsusi ilə istehlak malları üzrə ixrac-idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsini, daha optimal proqnozlaşdırılmaların aparılmasını, ümumilikdə istehlak malları üzrə ixrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin artırılmasını zəruri edir. Bu amillər dissertasiya işinin mövzusunun aktuallığına dəlalət edir.

**Problemin öyrənilmə səviyyəsi**. Müasir dövrdə istehlak malları üzrə xarici ticarətdə idarəetmənin, ümumilikdə xarici ticarət əlaqələrinin səmərəliliyi problemlərinin baxılması bir çox ölkə və xarici tədqiqatçıların, iqtisadçı alimlərin əsərlərində öz əksini tapmışdır. Bu sahədə ölkə alimlərindən və tədqiqatçılarından A. A. Ələkbərov, S. V. Salahov, Z. Ə. Səmədzadə, R. M. Cəbiyev, R. N. Hüseynəliyev, Ə. İ. Bayramov, Ç. M. Abbasov, Ş. Q. Hacıyev, Ş. S. Qafarov, R. T. Həsənov, T. İ. İmanov, T. A. Quliyev, Ə. C. Muradov, K. B. Paşayev, A. Q. Səmədov, İ. A.

Feyzullabəyli, Ş. T. Əliyev və digərlərinin xüsusi əməyini qeyd etmək olar. Bir qrup gənc tədqiqatçılar – V. İ. Əliyev, K. D. Əlirzayev, M. M. Əhmədov, S. T. Əsgərova, F. N. İsmayılov, M. Q. Məmmədov, T. K. Qafarov və başqaları da baxılan problemlər üzrə tədqiqatlar aparmışlar.

Dünya ölkələrinin alimləri tərəfindən xarici ticarətin təşkili üzrə problemlərə dair, həmçinin bazar iqtisadiyyatı şəraitində istehlak mallarının dünya bazarlarına çıxarılmasının səmərəli yollarının müəyyənləşdirilməsi istiqamətində tədqiqatlar aparılmış, elmi əsərlər yazılmışdır. Bunların sırasında İ.S.Alekseyev, V.L.Abramov, A. Y. Arxipov, M. N. Brodskoy, S. Q. Bojuk, Q. A. Baqiyev, F. Vea, Y. F. Vavilova, A. V. Vorontsov, İ. N. Qerçikova, S. Y. Qlazyev, N. Duqlasan, P. A. Daft, B. N. Kuzık, N. Q. Kamtseva, V. K. Lomakin, V. M. Mişin, İ. M. Moqilevkin, V. A. Malışev, Y. P. Puzakova, S. Q. Popov, M. Porter, S. E. Pivovarov, Y. F. Prokuşev, K. N. Petrov, V. V. Pavlov, Y. M. Rostovtsev, İ. A. Rodionova, K. Sio, Y. N. Smirnov, İ. N. Ustinov, V. Feltsman, S. Xollensen, Ş. Çarlz, V. Y. Çerkasov və digərlərinin elmi- tədqiqat əsərlərini qeyd etmək mümkündür.

Qeyd etmək lazımdır ki, istehlak malları üzrə xarici ticarətdə idarəetmə proseslərinin daha optimal təşkili, istehlak mallarının səmərəli formada dünya bazarlarına çıxarılması, bu fəaliyyətlə məşğul olan firmaların xarici ticarət strategiyalarının təkmilləşdirilməsi və müasir qloballaşma dövrünün iqtisadi tələblərinə adekvat olan xarici ticarət mexanizmlərinin həyata keçirilməsi üzrə müasir araşdırmalara, fundamental elmi tədqiqat işlərinin aparılmasına ciddi zərurət qalmaqdadır. Xüsusi ilə, son dövrlər başlayan dünya maliyyə böhranının mənfi fəsadları göstərmişdir ki, müasir zamanda ortaya çıxan maliyyə - iqtisadi problemlərin həllində dövlətin rolunun artırılması, dövlət idarəçiliyinin gücləndirilməsi, ayrı-ayrı fəaliyyət sahələri, o cümlədən xarici ticarət fəaliyyəti üzrə idarəetmə sisteminin təkmilləşdirilməsi, yenilənməsi və qlobal iqtisadi təhlükələr kontektində gücləndirilməsi vacib məsələlərdəndir. Bütün bunlar, dissertasiya işinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsində, dissertasiyanın mövzusunun seçilməsində, tədqiqat işində müəllif mövqeyinin formalaşdırılmasında əhəmiyyətli təsirə malik olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi müasir şəraitdə - qlobal iqtisadi çağırışların kəskinləşdiyi mürəkkəb dövrdə istehlak malları üzrə xarici ticarətdə idarə etmənin iqtisadi təşkilatı aspektlərinin dərindən öyrənilməsindən çıxış etməklə, bu sahədə idarəetmənin maksimum səmərəliliyinin arıtılması yollarının müəyyənləşdirilməsidir.

Bununla əlaqədar olaraq dissertasiya işində qarşıya əsasən aşağıdakı məqsəd və vəzifələr qoyulmuşdur:

- xarici bazar proseslərinin idarəedilməsi üzrə nəzəri baxışların tədqiqi;
- istehlak malları üzrə xarici ticarətin idarəetməsi xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- istehlak malları üzrə xarici ticarətin idarəetməsinin metodlarının və metodoloji yanaşmaların hazırlanması;
- istehlak malları üzrə xarici ticarətin idarəetmə strukturunun yenidən qurulmasının resurs təminatının müəyyənləşdirilməsi;
- xarici ticarətin idarəetmə sisteminin müasir vəziyyətinin struktur təhlilinin aparılması;
- istehlak malları bazarı subyektlərinin fəaliyyətinin rəqabət qabiliyyətlilik səviyyəsinin artırılmasının tədqiqi;
- xarici ticarət idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi;
- xarici bazarda istehlak mallarının rəqabətqabiliyyətliliyinin və istehlak mallarının bölüşdürülməsinin optimallığı üzrə qiymətləndirmələrin aparılması, proqnozların verilməsi;
- ixrac-idxal əməliyyatlarının səmərəlilyinin artırılması yollarının müəyyənləşdirilməsi.

**Tədqiqatın predmeti** xarici bazarlarda istehlak malları və onların iqtisadi – təşkilati mexanizmlərinin idarəetmə münasibətləri götürülmüşdür.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikası və onun ayrı-ayrı subyektlərinin istehlak malları üzrə xarici ticarət fəaliyyəti çıxış edir.

**Dissertasiyanın nəzəri və metodoloji əsaslarını** baxılan problemlər üzrə konseptual müddəalar və yanaşmalar, respublika və xarici ölkə alimlərinin elmi

əsərləri, istehlak malları üzrə xarici ticarətin idarəetməsinin iqtisadi – təşkilati aspektlərinin təkmilləşdirilməsi məsələləri təşkil edir. İşdə təhlillər və araşdırmalar zamanı qruplaşdırma, müqayisəetmə, iqtisadi-riyazi metodlardan və modelləşdirmələrdən istifadə olunmuşdur. Dissertasiya işinin informasiya bazasını Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Dövlət Statistika, Gömrük Komitələrinin, Azərbaycan Respublikası İqtisadiyyat, Maliyyə Nazirliklərinin, MDB dövlətlərinin statistik məlumatları, xarici ticarət fəaliyyəti üzrə statistik nəşrlər və analitik məlumatlar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**. İşin əsas elmi yeniliyi respublikada ilk dəfə olaraq istehlak malları üzrə xarici ticarətin idarəetməsinin iqtisadi – təşkilatı problemlərinin kompleks tədqiqi ilə bağlıdır. Xarici ticarətin tənzimlənməsi və istehlak malları üzrə xarici ticarətin idarəetmə sisteminin elmi əsaslandırılması üzrə fərqli yanaşma verilmişdir. Digər əsas elmi yeniliklər aşağıdakılardır:

- xarici bazar proseslərinin idarəedilməsinə nəzəri baxışlar elmi kontekstdən əsaslandırılmışdır;
- istehlak malları üzrə xarici ticarətin idarəetməsinin metodoloji yanaşmaları və xüsusi metodları hazırlanmışdır;
- istehlak malları üzrə xarici ticarətin strukturunun yenidən qurulması və idarəetməsinin təkmilləşdirilməsi məqsədi ilə resurs təminatı formalaşdırılmasının vacibliyi əsaslandırılmışdır;
- rəqabətqabiliyyətlilik səvyyəsinin qaldırılması sahəsində istehlak bazarı subyektlərinin fəaliyyəti sistemli tədqiq olunmuşdur;
- xarici bazarlarda istehlak mallarının rəqabətqabiliyyətliliyinin və bölüşdürülməsinin optimallıq səviyyəsi proqnozlaşdırılmışdır;
- ixrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi üzrə kompleks hesablamalar aparılmış, tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Dissertasiyanın praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri-metodoloji və digər nəticələri baxılan problemlər üzrə növbəti tədqiqat işlərinin aparılmasında,

istehlak malları üzrə xarici ticarətin idarəetmə sisteminin təkmilləşdirilməsində, müasirləşdirilməsində istifadə oluna bilər. İşdə verilmiş təklif və tövsiyələrdən həmçinin ali məktəblərdə "Beynəlxalq ticarət", "Ticarətin idarəedilməsi", "Beynəlxalq iqtisadi münasibətlər" fənnlərinin tədrisində istifadə edilməsi məqsədəuyğundur.

**Tədqiqatın nəticələrinin aprobasiyası və nəticələrin tətbiqi**. Tədqiqat işinin əsas müddəaları və nəticələri üç beynəlxalq və respublika elmi-praktiki konfranslarında edilmiş məruzələrdə verilmişdir. Dissertasiya işinin mühüm müddəalarını əks etdirən və 5,6 çap vərəqi həcmində olan 12 məqalə və tezis dərc edilmişdir.

Tədqiqatın nəticələri praktiki tətbiq edilməsi məqsədi ilə "AZƏRİ" MMC-də istifadə üçün qəbul olunmuşdur (məktub №20/2, 01 may 2018-ci il).

**Dissertasiya işinin strukturu və həcmi**tədqiqatda qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun hazırlanmışdır. İş giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir və işin ümumi həcmi 181 səhifədir.

## Mündəricat

**Giriş.**

**IFəsil. Xarici ticarətin idarəetməsinin nəzəri-metodoloji əsasları.**

1.1. Müasir bazar iqtisadiyyatı şəraitində xarici ticarətin idarəetməsinin nəzəri aspektləri.

1.2. Firmanın xarici son istehlakçılar bazarına çıxması zamanı idarəetmə strategiyasının xüsusiyyətləri.

1.3. Rəqabət üstünlüklərinin reallaşdırılmasında dünya təsərrüfatı əlaqələrinin dövlət tənzimlənməsi sistemi.

**II Fəsil. İstehlak malları üzrə xarici ticarətin idarəetməsinin mövcud vəziyyətinin kompleks təhlili və qiymətləndirilməsi.**

2.1. İstehlak malları üzrə xarici ticarətin idarəetməsinin yenidən qurulmasının resurs təminatı.

2.2. Xarici ticarətin idarəetmə sisteminin müasir vəziyyəti və onun quruluşunun təhlili.
2.3. Bazar subyektlərinin fəaliyyətində rəqabət qabiliyyətlilik səviyyəsinin artırılmasının tədqiqi.
**III Fəsil. İstehlak malları üzrə xarici ticarətin idarəetməsinin səmərəliliyinin artırılması yolları.**
3.1. Xarici ticarətin idarəetməsinin mexanizmlərinin təkmilləşdirilməsi.
3.2. Xarici bazarda istehlak mallarının rəqabət qabiliyyətliliyinin qiymətlərinin proqnozlaşdırılması və bölüşdürülməsinin optimallığı.
3.3. İxrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin artırılması.
**Nəticə.**
**İstifadə olunmuş ədəbiyyat.**

## İŞİN ƏSAS MƏZMUNU

Giriş hissəsinsə mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması vəziyyəti öz əksini tapmışdır.

**“Xarici ticarətin idarəetməsinin nəzəri-metodoloji əsasları” adlı birinci fəsildə** müasir bazar iqtisadiyyatı şəraitində xarici ticarətin idarəetməsinin nəzəri aspektləri öyrənilmiş, firmanın xarici son istehlakçılar bazarına çıxması zamanı idarəetmə strategiyasının xüsusiyyətləri tədqiq edilmiş və rəqabət üstünlüklərinin reallaşdırılmasında dünya təsərrüfatı əlaqələrinin dövlət tənzimlənməsi sistemi araşdırılmışdır.

Müasir bazar iqtisadiyyatının formalaşdırlması şəraitində idarəetmə sistemlərinin, mövcud yanaşmaların, idarəetmənin forma və metodlarının dəyişdirilməsi, təkmilləşdirilməsi, iqtisadi strukturunun yenilənməsi obyektiv reallıqlar kimi ortaya çıxır. Bu proseslər daimi olaraq dəyişilməkdədir və şübhəsiz,

bununla bağlı daha səmərəli yanaşmalar, mexanizmlər tələb olunur. İdarə etmə proseslərinin yenilənməsi və təkmilləşdirilməsi mürəkkəb komponentlərdən ibarətdir və özündə bir-birilə sıx bağlı olan tədbirlər kompleksinin əks etdirir. Nəzəri kontekstdən yanaşdıqda, xarici ticarət fəaliyyət üzrə firma və kompaniyanın idarəetməsinin təşkilati strukturunun yenidən qurulması istiqamətlərini Cədvəl 1-dəki kimi vermək mümkündür.

**Cədvəl 1**

**İdarəetmənin təşkilati strukturunun yenidən qurulmasının əsas istiqamətlərinin qruplaşdırılması**

| *1. İdarəetmə prinsipləri* | *İdarəetmə funksiyaları* |
|---|---|
| -idarəetmənin mütəmadi olaraq məkəzləşdirilməsi və səlahiyyətlərin bölüşdürülməsi proseslərinin adekvatlığı;<br>-bölmələr arasında əlaqələrin səmərəliliyin artması və ya zəifləməsi;<br>- daha yüksək nəticələr üçün kompaniyanın resurslarının səfərbər edilməsi məqsədi ilə idarəetmə sistemində strateji proqramların hazırlanması və yerinə yetirilməsi tədbirlərinin gücləndirilməsi və s. | -strateji planlaşdırmanın və proqnozlaşdırmanın gücləndirilməsi;<br>-məhsulun keyfiyyəti üzrə nəzarətin yüksəldilməsi;<br>-rəhbərlik və idarəetmə heyyəti məsələlərinə güclü diqqətin yetirilməsi;<br>-firma kapitalının səhmlərinin əldə edilməsinə öz işçilərinin cəlbinin genişləndirilməsi;<br>-marketinq fəaliyyətinə diqqətin gücləndirilməsi və s. |
| *2. İdarəetmə aparatı* | *Təsərrüfat fəaliyyəti* |
| - bölmələrin yenidən qruplaşdırlması və onlar arasında qarşılıqlı əlaqələrin dəyişdirilməsi;<br>-səlahiyyətlərin yenidən baxılması və məsuliyyətin bölüşdürülməsi;<br>-daxili strukturun yenidən təşkili;<br>-firmalararası əlaqələrin xarakterinin dəyişdirilməsi;<br>-elmi istehsal kompleksinin yenidən qurulması hesabına fəallığının gücləndirilməsi və s. | -texnoloji proseslərin dəyişdirilməsi;<br>-daha səmərəli avtomatlaşdırılmış texnologiyaların tətbiq edilməsi;<br>-beynəlxalq səviyyədə ixtisaslaşma və istehsalın koorperasiyası sahələrində firmalararası əməkdaşlığın dərinləşdirilməsi və s. |

**Qeyd: müəllif tərəfindən hazırlanmışdır.**

Xarici ticarət fəaliyyəti beynəlxalq iqtisadi münasibətlərin ənənəvi və daha çox inkişaf etmiş formasıdır. Beynəlxalq iqtisadi münasibətlərin 80 %-ə qədəri xarici ticarətin payına duşür. Amerikalı iqtisadçıların fikrincə, istənilən ölkənin iqtisadi uğurları ilk növbədə xarici ticarətin səmərəli təşkilinə əsaslanır. Dünyada heç bir ölkə dünya iqtisadi sistemindən ayrı şəkildə güclü və rəqabətqabiliyyətli iqtisadiyyat yaratmağa nail olmamışdır. Bu baxımdan, beynəlxalq ticarət – xarici ticarət xarici

iqtisadi fəaliyyətin aparıcı sahəsi hesab olunur. XX əsrin sonlarında və XXI əsrin əvvəllərində beynəlxalq ticarət dünya təsərrüfatı sisteminin daha çox dinamik inkişaf edən sahəsi kimi dəqqət çəkmişdir. Bu proseslərdə ənənəvi mal dövriyyəsi kanalları ilə yanaşı, yeni xarici ticarət mənbələri sürətlə formalaşmaqda davam etmiş və beynəlxalq səviyyədə xarici ticarət vasitəsilə mal və xidmətlərin çeşidi genişləndirilmiş, həcmi isə əhəmiyyətli səviyyədə artmışdır. Bunlarla bərabər, xarici ticarət xarici iqtisasdi fəaliyyətin əsas formalarından olmaqla ölkələarası mal və xidmətlərin mübadiləsini, metod və vasitələrini özündə birləşdirir.

İdarəetmənin nümunəvi strategiyaları və konseptual yanaşmaları ilə bağlı məsələlərdə müsbət və mənfi halların, təsirlərin tədqiqini aparan görkəmli iqtisadçı K. P. Makkonnellə görə, beynəlxalq ticarət rəqabətin gücləndirilməsində və dünya resurslarının tədqiqində maksimum səmərəli forma kimi böyük iqtisadi faydalar verir. Potensial çatışmayan cəhət isə ondan ibarətdir ki, beynəlxalq iqtisadi münasibətlərdə rəqabətin güclənməsi makrosəviyyələrdə yeni qeyri-sabitlik mənbələri əmələ gətirir və bütün bunlar iqtisadi siyasətin səmərəli hazırlanmasını mürəkkəbləşdirir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, bir qrup amillər beynəlxalq əmək bölgüsü sistemində özünü büruzə verir və bunlar müxtəlif dünya ölkələrinin makroiqtisadi siyasətlərinə əhəmiyyətli təsir göstərir. Adətən iqtisadi ədəbiyyatda bunlarla bağlı olaraq üç qrup əsas amilləri fərqləndirirlər: təbii-coğrafi fərqlər-təbii iqlim şəraiti, ərazinin böyüklüyü, əhali sayı, iqtisadi-coğrafi vəziyyəti; texniki tərəqqi-iqtisadi inkişafın xüsusiyyətləri, istehsal ənənələri və ənənəvi xarici iqtisadi əlaqələri, iqtisadi və elmi-texniki inkişafın inkişaf səviyyəsi üzrə müvəfəqiyyətləri; sosial-iqtisadi şərait - sosial tip və milli istehsalın təşkili mexanizmi, sosial əlamətlər və xarici iqtisadi münasibətlərin təşkili mexanizmləri.

Bu kimi yanaşmalar və fəaliyyət istiqamətləri, “yeni” rəqabət prinsipləri və meyarları bir çox keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan ölkələr üçün xarakterik olsa da, bunlardan Azərbaycan Respublikasının xarici ticarət siyasətində, xarici-iqtisadi əlaqələrin təşkilində, xarici ticarət fəaliyyətinin iştirakçılarının beynəlxalq inteqrasiya proseslərində və dünya bazarlarında daha fəal iştirakının təmin edilməsində tam mənada istifadə edilməsi o qədər də məqsədəuyğun deyildir və

tətbiqi perspektivləri zəifdir. Mütləq üstünlük komponentləri baxımından Azərbaycanın xarici ticarətinin yeni strukturu o qədər də səmərəli deyildir və bu baxımdan ixrac və idxal əməliyyatları üzrə əmtəə çeşidlərinin təhlili göstərir ki, mal mübadiləsi əməliyyatları təşkili qeyri-səmərəlidir. Belə ki, xarici mübadilənin səmərəliliyi ilk növbədə xammal məhsullarının ixracı istiqamətindədir, idxalda isə əsas yeri xalq tələbatı malları, başqa sözlə istehlak malları tutur.

Bu amillər və xüsusiyyətlər, reallıqlar nəzərə alınmaqla, fikrimizcə müasir bazar iqtisadiyyatı şəraitində ölkəmizdə istehlak malları üzrə xarici ticarətin idarəetmə sisteminin səmərəlilyinin əhəmiyyətli səviyyədə artırılmasına xüsusi diqqət yetirilməlidir.

Xarici ticarət fəaliyyəti milli iqtisadiyyatın başqa sektorları və sahələri ilə müqayisədə spesifik xüsusiyyətlərə malikdir və bu baxımdan xarici ticarətin idarəedilməsi metodları da kifayət qədər fərqlidir, daha səmərəli və balanslaşdırılmış idarəetmə mexanizmlərinin tətbiqini tələb edir. Bu istiqamətdə daha çox fərqlənən xüsusiyyətlərdən bir qrupunu qeyd etmək istərdik:

- xarici ticarətin tənzimlənməsində dövlətin tətbiq etdiyi iqtisadi – təşkilati mexanizmlərin adekvatlığı;
- xarici ticarət fəaliyyətinin səmərəliliyinin artırılması tədbirləri;
- ölkənin ixrac potensialının inkişaf etidirilməsi və ixrac məhsullarının keyfiyyətinin idarəedilməsi proseslərinin təkmilləşdirilməsi;
- xarici-iqtisadi fəaliyyətin iqtisadi stimullaşdırılmasının gücləndirilməsi;
- xarici ticarət fəaliyyətinə çəkilən xərclərin maksimum azaldılması və optimallaşdırılması;
- xarici ticarət fəaliyyətinin tənzimlənmə tədbirlərinin səmərəliliyinin artırılması və onun hüquqi bazasının təkmilləşdirilməsi və s.

Xarici ticarətin idraəetmə sistemində strateji idarəetmənin ən mühüm istiqamətlərindən biri firmanın xarici son istehlakçıla bazarına çıxamsı məqsədilə strateji yanaşmaların təmin edilməsi və idarəetmə strategiyasının hazırlanmasıdır. Bu tədbirlərin mürəkkəbliyi xüsusiyyətləi nəzərə alınmaqla, onların bir neçə mərhələdə reallaşdırılması məqsədə müvafiqdir:

- nəzarət məntəqələrinin fəaliyyət strategiyası;
- bazarda daha uğurlu fəaliyyətin təşkili strategiyası;
- malın dəyərinin və əhəmiyyətinin dərk edilməsi strategiyası;
- mal qruplarının satışı strategiyası;
- idarəetmə strategiyasının hazırlnamsına təsir edən amillərin qiymətləndirilməsi;
- istehsal və malların satışına çəkilən xərclərin dürüst və şəffaf uçotu;
- malın həyat tsikli və bazar strategiyasının dəyişdirilməsi;
- xarici bazarda firmanın fəaliyyətinin proqnozlaşdırılması və potensial imkanların qiymətləndirilməsi və s.

Xarici ticarət firmasının idarəetmə sisteminin səmərəliliyinin qiymətləndirilməsində diskont dərəcəsinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Diskontun müəyyənləşdirilməsi dövrünə kompaniyanın mövcud biznesinin dəyəri və onun gəlirlik səviyyəsi üzrə obyektiv hesablamalardan, aktivlərin səviyyəsindən çıxış etməklə kompaniyanın investisiya fəallığının, biznesin genişləndirilməsi və bunlarla əlaqədar risklərin azaldılması mexanizmlərinin, alətlərini hazırlamaq, real gəlirlilik səviyyəsini müəyyənləşdirmək mümkündür. Bu halda, biznesin təşkili və aparılması və bunlarla əlaqədar yatırılan investisiyalarının risklərinin proqnozlaşdırılması, investisiya kapitalının gəlirliliyinini hesablanılması, vacib şərtlərdəndir.

İdarəetmə modellərinin əsas altsistemləri kimi qarşıya qoyulan məqsədlərin vacib elementləri və atributları, qlobal məqsədlərə çatmaq üçün vasitərlərin adekvatlığı, əsas məqsədlərin keyfiyyət və kəmiyyət baxımından obyektiv qiymətləndirilməsi, məqsədlərə çatmağın kulminativ hədəfləri, məqsəd və vəzifələrin mühüm əmsalların qiymətləndirilməsin, son məqsədə çatmağın multiqraflığı, proqnozlaşdırılan hədəflərə çatmağ üçün alternativ yanaşmaların baxılması, üsülların seçilməsi və əsaslandırılmasın modelləşdirilməsi daha çox diqqət çəkirlər. Xarici ticarətin idarə ediməsi üzrə dünya təsərrüfat sistemindəki transformasiyaar və baş verən qlobal dəyişikliklər nəzərə alınmaqla idarəetmə sisteminin modelləşdirilməsinin blok-sxemi şəkil 1-də verilmişdir.




**Şəkil 1. Dünya təsərrüfat sistemində xarici ticarətin idarəetmə modelinin blok-sxemi(müəllif tərəfindən hazırlanmışdır)**

Bu idarəetmə modelinin birinci blokunda qlobal iqtisadi tendensiyalar və transformasiyalar şəraitində əsas atributlar kimi aşağıdakılar verilmişdir:

- fəaliyyət predmeti – xarici ticarət dövriyyəsinin idarə edilməsi;
- kəmiyyət tədbiri – xarici ticarət dövriyyəsinin həcmi;
- keyfiyyət xüsusiyyətləri – xarici ticarət dövriyyəsinin strukturu;
- zaman və məkan üzrə məqsədlərin koordinasiyası:
- xarici, birgə dünya təsərrüfatı əlaqədləri;
- məqsədlərin davamlılığı: 1 il, 1-3 il, 3-5 il və s.

Xarici ticarətin idarəetmə modelinin ikinci blokunda lokal məqsədlərin dəqiqləşdirilməsi və bunlarla bağlı dəyişikliklər, alternativ yanaşmalar və mövcud tendesiyalar nəzərə alınmaqla başlıca məqsədlərin müəyyənləşdirilməsi əks olunmuşdur:

- firmanın təkçə xarici bazarda yox, həm də daxili və lokal bazarlarda davranışı;
- hər hansı istənilən bir ərazidə regionla idarəetmə sisteminin xüsusiyyətləri və s.
- xarici ticarətin idarəetmə modelinin üçüncü blokunda əsas etibarı ilə xarici ticarətin təşkili üzrə kəmiyyət və keyfiyyət parametrləri öz əksinin tapmışdır:
- xarici ticarətin əməliyyatlarının və prosedurlarının məqsədli təyinatının müəyyənləşdirilməsi;
- xarici ticarət fəaliyyəti növlərinin müəyyənləşdirilməsi, məsələn əsas, köməkçi fəaliyyət sahələri və s.

Bundan əlavə, qeyd olunan bloka həmçinin xarici ticarət üzrə idarəetmənin qarşısında duran əsas məqsədlər toplusu parametrlərinin qiymətləndirilməsi parametrləri daxil edilmişdir:

- xarici ticarətin idarəetmə sistemində həll olunmayan bir neçə problemlərin mümkün həlli vaxtlarının və yollarını qiymətləndirilməsi;
- dünya təsərrüfat sistemin idarə edilməsi proseslərin real struktunun seçilməsi;
- məqsədə tam çatmaq və yaxud nisbi səviyyədə tələb olunan meyyarlar səviyyəsinə çatmaq üçün optimal xətlərin seçilməsi.

Xarici ticarətin idarəetmə modelinin dördüncü blokunda xarici ticarətin məqsədinə çatmağın səmərəliliyinin merilosunun (ölçülməsinin) prinsipləri öz əksinin tapmışdır: max və min

Ümumi halda:

Məqsədli funksiya = məqsəd / vasitə =

$$P/RT = \left[{}^{a)}P`/R`N\right] + \left[{}^{d)}P`/RT`\right] + \left[{}^{b)}P/R`T`\right] + \left[{}^{q)}P`/RT\right] \rightarrow \max,$$

P – nəticə, yəni xarici ticarət dövriyyəsi;

R – resurslar, yəni imzalanmış kontraktlar əsasında mövcud malların miqdarı;

T – məqsədə çatmağın vaxtı;

ən qısa vaxtı müəyyənləşdirən məqsədli formula (min T);

ən minimum resurs taminatı üzrə məqsədli funksiya (min P);

ən yüksək göstəricini müəyyənləşdirən məqsədli funksiya (мах P);

mimimum maya dəyərinin müəyyənləşdirilməsi üzrə məqsədli funksiya (min PT).

Şəkil 2-də isə xarici ticarətin idarəetmə modelinin beşinci blokunda xarici ticarətin məqsəd və vəzifələrinin mühümlülük əmsallarının qiymətləndirilməsi məqsədilə, hər bir vəzifənin ekspert qiymətləndirilmələri nəzərə alınmaqla əhəmiyyətnin müəyyənləşdirilməsi və yekun alqoritmin formalaşdırılması verilmişdir.




**Şəkil 2. Xarici ticarətin idarəetmə sistemində məqsəd və vəzifələrinin mühümlülük əmsallarının qiymətləndirilməsi.**

Şəkil 2-də verilənlərin şərti ifadələri:

a – xarici ticarətin idarəetmə sistemin məqsədlərinin adları;

$\beta$ - xarici ticarətin idarəetmə sistemin vəzifələrinin adları;

$K_j^a$ - j – ekspetin a – məqsədlərin mühümlülük əmsalı;

$K_a$ -a məqsədlərinin mühümlüyinin nisbi əmsalı;

$K_j^\beta$ - j – ekspertin $\beta$ - mühümlülük əmsalı;

$K_\beta^a$ - a – məqsədlərə çatmaq üçün $\beta$ - vəzifələrin nisbi mühümlülük əmsalı;

$K_\beta$ - a davamlı məqsədlərə çatmaq üçün $\beta$ vəzifələrin nisbi mühümlülük əmsalı.

Şəkil 3-də xarici ticarətin idarəetmə modelinin altıncı blokunda xarici ticarətin yekun məqsədlərinə çatmağın alternativ multiqrafının müəyyənləşdirilməsi məqsədilə, predmet-məqsədli strukturun çoxsəviyyəli iearxiyası verilmilşdir.




**Şəkil 3. Xarici ticarətin idarəetmə sistemində yekun məqsədlərə çatmağın alternativ multiqrafı.**

Multiqrafda çoxlu sayda alternativlər yaranır:

$a = [b1 \vee b2\ ];\ b1 = [\alpha 1 \vee \alpha 2 \vee \alpha 3\ ]\ ;\ \alpha_1 = [\beta 1 \vee \beta 2 \vee \beta 3\ ]$ və s.

Bu cür alternativ məlumatların birləşdirilməsi isə çoxlu sayda davamlı multiqraf formalaşdırır və bunların hər hansı bir zənciri üzrə çoxlu elementlər öz əksini tapır $\mu = [a, b, \alpha, \beta\ ]$. Bu halda xarici ticarətin idaeətetmə sistemin yekun məqsədlərinə çatmasının müəyyən bir variantının əldə etmək mümkündür.

Xarici ticarətin idarəetmə modelinin yeddinci – sonuncu blokunda isə xarici ticarətinin idarəetməsinin məqsədlərinə çatmaqda alternativ üsülların əsaslandırılması və modelləşdirilməsi öz əksini tapmışdır.

Qeyd edək ki, xarici ticarətin idarəetmə modelinin seçilməsi və fəaliyyət üsüllarını müəyyənləşdirilməsi dünya təsərrüfat sistemində baş verən proseslərin xüsusiyyətlərindən, həmçinin qarşıya qoyulan vəzifələrin həlli dərəcəsinin mürəkkəbliyindən asılı olaraq baxılır və qiymtələndirilir. Bu məqsədlə, fikrimizcə, aşağıdakı modellərin seçilməsi daha məqsədəuyğundur və həmin modelərin praktiki proseslərdə istifadə eduilməsi potensialı diqqət çəkir:

1.Xətti proqramlaşdırma birbaşa variantının ümumi modeli, bu halda tapılmalıdır:

$$F = \sum_{j=1}^{n} C_j X_j = \max \quad (1)$$

məhdudiyyətlərin qorunması şərtilə

$$\sum_{j=1}^{n} q_{ij} x_j < Qi, \ (i = 1,2,......,m), \quad (2)$$

burada $X_j$- xarici ticarət fəaliyyətinin səviyyəsi;

$C_j$- xarici ticarət fəaliyyətinin qiymətləndirmə əmaslı;

Q -xarici ticarətin həcmi amili;

$q_{ij}$ – hər bir vahid j fəaliyyətinə i xarici ticarət istehlakı amili;

m -modeldə nəzərə alınan amillərin miqdarı;

n– xarici ticarət fəaliyyətinin müxtəlifliyinin sayı.

2. Xarici ticarət idarəetmə sistemi modelinin ikili vəzifələri, bu halda tələb olunur:

$$Z = \sum_{i=1}^{m} Q_i \, U_i = \min (3)$$

bu şərtlə

$$\sum_{i=1}^{m} q_{ij} \, U_i \succ C_j \quad (4)$$

3. Xarici ticarət idarəetmə sistemində ekstrimal situasiyalardan asılı olaraq biraddımlıq vəzifələrin stoxastik proqramlaşdırma modeli aşağıdakı formula əsasında baxılır:

Tapmalı:

$$F = S_1 \sum_{r_j = x_j + 1}^{n} (r_1 - x_i) P_1(r1) + .....S_n \sum_{r_n = x_{n+1}}^{\infty} (r_n - x_n) P_n(r_n) \quad (5)$$

bu şərtlə

$$\sum_{j=1}^{n} q_j x_i < Q_{ixj} \geq O, \ \text{j =1, 2 ....., n,} \quad (6)$$

Burada:

$S_n$ - tələb olunduğu halda j malının xarici ticarətdə olmaması;

$r_j$ – j malına olan tələbat;

$x_j$ – j malının optimal ticarət ehtiyatı;

$P_j(r_j)$ – baxılan vaxt intervalı zamanı böyük ehtimalla j malına $p_j$ vahid tələb olunacaq;

$q_i$– xarici ticarət dövriyyəsinin kəmiyyət xüsusiyyətləri;

$Q_i$ – limitləşdirmə əmsalının səviyyəsi.

4. $P_{ij}$ çoxsaylı maraqlar ilə zəngin olan oyun nəzəriyyəsi modelinin üstün cəhətlərindən də xarici ticarətin idarəetmə sistemində istifadə edilməsi məqsədəuyğun sayılır. Belə ki, bu sahədə yaranan mübahisəli və konflikt hallarında həmin modeldən istifadə yolu ilə yaranmış problemlərin həllinə nail olmaq mümkündür. $P_г$ çoxaylı hərəkət elementindən strategiyasının seçilməsində baza element kimi istifadə edirlər. Strategiya çərçivəsində kombinasiyalaşdırılması zamanı bu formula əsasında baxılır:

$$S \subset PS_к , \qquad (7)$$

Konfliktin formal təsvirini və yazılışını bu sistem vasitəsi ilə ifadə etmək mümkündür:

$$p = ( R_n \underbrace{\{S_k\}}_{k=R_q}, C, P_{ij} \underbrace{\{> K\}}_{K \in R_{ji}} \qquad (8)$$

Bundan əlavə, xarici ticarətin idarəetmə sistemində bir sıra digər modellərdən də istifadə edilməsi ehtimalı vardır: statistik sınaq modeli; nəzəri-çoxsaylı modellər; balans modelləri; imitasiya modelləri; qrafik modellər; kütləvi xidmət modelləri. Bunlarla belə, xarici ticarətin idarəetmə sistemində daha çox cəlbedici və səmərəli modellər 1 – 8 formullarında verilmişdir.

**“İstehlak malları üzrə xarici ticarətin idarəetməsinin mövcud vəziyyətinin kompleks təhlili və qiymətləndirilməsi” adlı ikinci fəsildə** istehlak malları üzrə xarici ticarətin idarəetməsinin yenidən qurulmasının resurs təminatı məsələlərinə baxılmış, xarici ticarətin idarəetmə sisteminin müasir vəziyyəti və onun quruluşunun təhlili aparılmış və bazar subyektlərinin fəaliyyətində rəqabət qabiliyyətlilik səviyyəsinin artırılmasının tədqiqi edilmişdir.

Ölkəmizdə mühüm sosial-iqtisadi inkişaf istiqamətləri üzrə güclü potensial vardır, amma bunlarla belə problemlərdə mövcuddur, belə ki, milli iqtisadiyyatın artım tempinin yeni mənbələri zəruridir, xarici ticarətin gücləndirilməsi isə vacib şərtlərdən biri kimi diqqət çəkir. Bütün bunlar, iqtisadiyyatın idarəetmə struktrunun təkmilləşdirilməsini zəruri edir. Qarşıda duran bu mühüm problemin həlli üçün vacib olan resurs təminatının adekvatlığı isə ölkədə sənaye məhsullarının strukturu ilə uyğunlaşmır. Belə ki, resurs potensialının yüksək olmasına baxmayaraq, emal sənayesinin inkişafı mədənçıxarma sənayesi ilə müqayisədə hələlik adekvatlıq təşkil etmir və sənaye məhsullarının strukturu üzrə təhlildə bunları görmək mümkündür.

Cədvəl 2.

**Azərbaycan Respublikasında sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən, %-lə**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün sənaye: | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən: | | | | | | | | | |
| xam neft və təbii qaz hasilatı | 63,8 | 69,7 | 73,8 | 76,7 | 74,5 | 76,4 | 73,0 | 60,3 | 62,1 |
| qida məhsullarının istehsalı | 2,4 | 1,8 | 1,8 | 1,7 | 1,9 | 1,5 | 2,9 | 2,5 | 4,3 |
| toxuculuq və geyim sənayesi | 0,6 | 0,5 | 0,3 | 0,27 | 0,26 | 0,2 | 0,2 | 0,4 | 0,4 |
| dəri və dəri məmulatlarının, ayaqqabların istehsalı | 0,1 | 0,1 | 0,1 | 0,1 | 005 | 0,05 | 0,2 | 0,1 | 0,05 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | 0,1 | 0,1 | 0,1 | 0,05 | 0,05 | 0,05 | 0,1 | 0,1 | 0,04 |
| kağız və karton istehsalı | 0,04 | 0,04 | 0,03 | 0,04 | 0,05 | 0,04 | 0,1 | 0,1 | 0,2 |
| neft məhsullarının istehsalı | 9,9 | 12,4 | 9,8 | 8,3 | 8,6 | 8,2 | 9,5 | 10,1 | 8,1 |
| kimya sənayesi | 2,4 | 1,3 | 1,0 | 0,8 | 0,62 | 0,45 | 0,82 | 1,4 | 1,2 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,2 | 0,4 | 0,6 |
| metallurgiya sənayesi | 2,0 | 2,4 | 1,3 | 1,2 | 0,4 | 0,5 | 0,9 | 0,9 | 1 |
| maşın və avadanlıqların istehsalı | 0,4 | 0,4 | 0,4 | 0,3 | 0,4 | 0,6 | 0,9 | 0,8 | 0,5 |
| elektrik avadanlıqlarının, kompyuter və digər elektron avadanlıqların istehsalı | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,7 | 0,6 |
| nəqliyyat vasitələrinin və avadanlıqlarının istehsalı | 0,22 | 0,13 | 0,18 | 0,16 | 0,1 | 0,05 | 0,3 | 0,4 | 0,5 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, su təchizatı | 6,7 | 4,6 | 5,3 | 5,0 | 6,0 | 5,2 | 6,0 | 8,7 | 7,3 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org.**

Cədvəl 2-in təhlili göstərir ki, uzun illər ərzində hasilat sənayesinin ölkə iqtisadiyyatının strukturunda, xüsusi ilə sənaye istehsalının sahə strukturunda geniş miqyaslı tədbirlərin, tənzimləmə mexanizmlərinin, dövlət proqramlarının, strategiyaların və tədbirlər kompleksinin həyata keçirilməsinə baxmayaraq, hələ də mədənçıxarma sənayesinin, neft məhsulları istehsalının və s. enerji sektoruna saxil olan məhsulların xüsusi çəkisi çox olaraq qalmaqdadır. Xüsusi ilə, ayrı-ayrı yüksək ixrac potensialına malik sənaye sahələrinin payı ümumi sənaye istehsalının strukturunda onların mövcud və mümkün potensialından dəfələrlə aşağıdır (kimya sənayesi, rezin və plastik kütlə məmulatlarının istehsalı, metallurgiya sənayesi, qoida və toxuculuq sənayesi və s.). Sənaye istehsalının ümumi strukturuna baxdıqda xam neft və təbii qaz hasilatı, həmçinin neft məhsullarının istehsalı, elektrik enerjisi, təbii qaz və buxar istehsalı, su təchizatı ilə birlikdə 77,5 % təşkil edir. Əlbəttə, bu bir neçə əvvəlki illərlə müqayisədə nisbətən azalmışdır.

Buradan belə görünür ki, sənaye istehsalının sahə strukturunda vəziyyət 2005-ci ildə nisbətdə əhəmiyyətli səviyyədə dəyişilməmişdir və bununla əlaqədar olaraq struktur tənzimləmələrinin sürətləndirilməsi, xüsusi ilə müxtəlif istehlak təyinatlı emal sənayesi sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılması vacib şərtlərdəndir. Düzdür, qida məhsullarının ölkə üzrə sənaye istehsalnın sahə strukturunda payı 2005-2016-cı illərdə 1,8 dəfəyə yaxın artmış və 2016-cı ilin yekununda 4,3 % təşkil etmişdir.

Azərbaycanda sənaye isthsalının sahə strukturunun təhlili üzrə belə bir nəticəyə gəlmək mümkündür ki, hazırda ölkənin ixrac potensialı, xarici ticarətin təşkili ilə bağlı real fəaliyyət istiqamətləri əsasən mineral xammalar və enerjidaşıyıcılarla bağlıdır və bu, ölkənin xarici ticarət dövriyyəsinin, xüsusi ilə ixracın strukturunda da özünü göstərir. Digər qeyri-neft məhsullarının, o cümlədən istehlak mallarının ixrac potensialının gücləndirilməsi üçün xarici ticarət fəaliyyətinin idarəetmə struktrunun və onun mövcud mexanizmlərinin əhəmiyyətli səviyyədə yenilənməsi, innovasiyalaşdırılması tələb olunur.

**Cədvəl 3**

**Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin əmtəə strukturu**

**(2006-2016, %-lə)**

| Mal qrupları | İdxal | | | | | | İxrac | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | o cümlədən | | | | | | o cümlədən | | | | | |
| | 2006 | 2009 | 2010 | 2014 | 2015 | 2016 | 2006 | 2009 | 2010 | 2014 | 2015 | 2016 |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 0,8 | 1,1 | 1,3 | 1,6 | 1,5 | 2,1 | 0,00 | 0,00 | 0,06 | 0,0 | 0,0 | 0,0 |
| Bitki mənşəli məhsullar | 3,8 | 5,1 | 6,6 | 4,6 | 5,0 | 6,9 | 2,5 | 1,5 | 0,5 | 1,5 | 2,6 | 4,2 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 0,8 | 1,2 | 1,4 | 1,0 | 0,9 | 1,7 | 1,0 | 0,9 | 0,9 | 0,9 | 1,2 | 0,2 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 5,2 | 8,5 | 9,3 | 9,7 | 7,5 | 7,8 | 1,6 | 1,2 | 1,0 | 1,4 | 2,2 | 1,3 |
| Mineral məhsullar | 14,8 | 2,8 | 3,2 | 4,9 | 2,4 | 3,8 | 84,6 | 92,8 | 94,2 | 92,5 | 88,0 | 87,4 |
| Kimya sənayesi məhsulları | 4,70 | 6,6 | 6,6 | 7,8 | 7,6 | 8,3 | 3,0 | 0,2 | 0,2 | 0,3 | 0,6 | 0,6 |
| Plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar | 2,6 | 2,8 | 3,4 | 3,3 | 2,8 | 2,4 | 1,6 | 0,4 | 0,4 | 0,7 | 0,9 | 1,1 |
| Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar | 0,0 | 0,01 | 0,00 | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,01 | 0,01 | 0,1 | 0,1 | 0,2 |
| Oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları | 1,0 | 1,4 | 2,5 | 1,4 | 2,5 | 2,2 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar | 1,5 | 2,1 | 1,9 | 1,4 | 1,0 | 1,4 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |
| Toxuculuq materialları və məmulatları | 1,2 | 0,9 | 0,9 | 1,3 | 1,0 | 3,7 | 1,0 | 0,3 | 0,2 | 0,2 | 0,3 | 0,4 |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 0,3 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,9 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |
| Daş, gips, sement, keramika və şüşədən məmulatlar | 1,5 | 2,6 | 3,1 | 1,9 | 2,3 | 2,3 | 0,02 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |
| Qiymətli daşlar və metallar | 0,1 | 0,3 | 0,2 | 4,6 | 0,1 | 0,3 | 0,00 | 0,2 | 0,4 | 0,4 | 0,7 | 0,8 |
| Qiymətli daşlar və metallardan hazırlanan məmulatlar | 11,7 | 10,8 | 14,1 | 0,6 | 20,3 | 15,4 | 2,4 | 0,8 | 0,6 | 0,6 | 1,0 | 2,4 |
| Maşın və avadanlıqlar | 29,4 | 34,8 | 28,8 | 28,1 | 26,7 | 23,6 | 0,6 | 0,2 | 0,2 | 0,3 | 0,5 | 0,4 |
| Nəqliyyat vasitələri | 16,7 | 12,7 | 12,1 | 8,8 | 7,7 | 9,4 | 1,3 | 1,2 | 0,8 | 0,00 | 0,0 | 0,7 |
| Tibbi avadanlıqlar, kinomatoqrafiya, foto aparatları, | 2,2 | 3,5 | 2,7 | 3,1 | 2,6 | 2,3 | 0,01 | 0,00 | 0,00 | 0,00 | 0,1 | 0,1 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| saatlar və musiqi alətləri | | | | | | | | | | | | |
| Müxtəlif sənaye malları | 1,6 | 1,1 | 1,4 | 2,1 | 2,2 | 3,3 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |
| İncəsənət əsərləri və antikvariat | 0,00 | 0,2 | 0,00 | 0,0 | 0,0 | 0,0 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,0 | 0,0 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org.**

Cədvəl 3-ün təhlili göstərir ki, Azərbaycanda xarici ticarət dövriyyəsinin strukturunda problemlər və disporsiyalar mövcuddur. Belə ki, xarici ticarət dövriyyəsinin strukturunda ixracla bağlı məsələlərin geniş aspektdə baxılması, təhlil olunması və qiymətləndirilməsi zərurəti vardır. Ölkə ixracının strukturunda mineral məhsulların həcmi 2006-2016-cı illər ərzində demək olar ki, əhəmiyyətli səviyyədə dəyişilməmişdir. Ümumi ixracın strukturunda mineral məhsulların payı 2006-cı ildə 84,6 % təşkil edirdisə, bu göstərici 2010-cu ildə 94,2 % , 2015-ci ildə 88,0 %, 2016-cı ildə isə 87,4 % olmuşdur. Təəssüf ki, ixracın strukturunda digər sənaye sahələrinin və xüsusilə emal sənayesi sahələrinin payı aşağıdır.

Xarici ticarət dövriyyəsinin əmtəə strukturunda idxalla bağlı məsələlərdə xüsusi diqqət çəkir. Maşın və avadanlıqların, qiymətli daşlar və metallardan hazırlanan məmulatların, qiymətli daşlar və metalların, həmçinin bir sıra digər malların ölkəyə idxalının xarici ticarət dövriyyəsinin strukturunda yüksək olması izah olunandır, çünki həmin məhsulların istehsal sahələrinin inkişaf etdirilməsi üzrə Azərbaycanda güclü potensial, istehsal imkanları, texnologiyalar hələlik tələb olunan səviyyədə yoxdur və bu istiqamətlər üzrə ölkəmiz yaxın perspektivdə də ixtisaslaşmaq potensialına malik deyildir. Ancaq, bitki mənşəli məhsulların, hazır ərzaq məhsullarının, spirtli və spirtsiz içkilərin, sirkə və tütün məmulatlarının, kimya sənayesi məhsullarının toxuculuq materiallarının və məmulatlarının idxalın strukturunda hələ də çox olması ciddi şəkildə araşdırmalı, qiymətləndirilməli və adekvat olaraq uzunmüddətli təsirli tədbirlərin görülməsi təmin edilməlidir. Bu məhsulların əksəriyyəti ölkə əhalisinin gündəlik ərzağa olan tələbatı və həmçinin geyim məmulatları ilə bilavasitə bağlıdır. Heç kəsə sirr deyildir ki, bu istiqamətlər üzrə ölkəmizdə güclü potensial, o cümlədən müxtəlif çeşiddə və tələb olunan həcmdə xammal resursları mövcuddur. Kənd təsərrüfatları sahələrinin və aqrosənaye

kompleksinin inkişafı ilə bağlı ölkəmizdə aparılan ciddi islahatların, bu sahələrin elmi əsaslar üzərində inkişafının təmin edilməsi tədbirlərinin həyata keçirilməsi proseslərinin intensivləşməsini nəzərə alsaq, yaxın perspektivdə xarici ticarət dövriyyəsinin əmtəə strukturunda, konkret olaraq idxalın strukturunda əhəmiyyətli dəyişikliklərə nail olmaq mümkündür, əvəzində isə həmin istiqamətlər üzrə ixrac potensialının artırılması imkanından maksimum səmərəli istifadə olunması perspektivləri diqqət çəkir.

Azərbaycanda son onilliklərdə aqrar islahatların yüksək templə aparılması, torpaqların əhəmiyyətli hissəsisinin orada yaşayan insanların istifadəsiniə verilməsi, kənd təsərrüfatı sahələrinin inkişafına dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafı üzrə ardıcıl olaraq iri həcmli və miqyaslı dövlət proqramlarının həyata keçirilməsi, kənd təsərrüfatı sahələrinin və aqrar sənaye kompleksinin elmi əsaslar üzrəində inkişaf etdirilməsi proseslərinin sürətləndirilməsi, regionlarda aqrar sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizmlərin müxtəlif formaların hazırlanması və tətbiq edilməsi, fermer təsərrüfatlarına, ailə kəndli təsərrüfatlarına və kənd təsərüfatı müəssisəslərinə subsidiyaların verilməsi, yanacaq və kənd təsərrüfatı gübrələrinin ayrılması, kənd təsərrüfatı texnikası təminatı üzrə sistemli tədbirlərin görülməsi və hər bir regionda müvafiq infrastrukturun yaradılması, iri kənd təsərrüfatı texnikası və maşınlarına bu sahədə çalışanların əlaşatanlığının təmin olunması, heyvandarlıqda və bitkiçilik məhsularının istehsalı və yetişdirilməsinin səmərəliliyinin artırılmasında müasir texnologiyaların tətbiqinin genişləndirilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi, innovasiyaların aqrar sahədə daha çox tətbiqi məqsədilə investisiyaların artırılması üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi, regionlarda kənd təsərrüfatı və ərzaq məhsullarının bütün il boyu istehsalı, tədarükü, satışı və ixracı ilə bağlı kompleks infrastrukturun formalaşdırlması, anbar təsərrüfatlarının və logistik mərkəzlərin yaradılması ölkəmizdə kənd təsərrüfatı və ərzaq məhsullarının əhalinin artan istehlak tələbatına uyğun təşkilinə və bununla yanaşı istehsalın əhəmiyyətli hissəsisnin ixracına imkan verir. Əsas şərt ondan ibarətdir ki, bu tədbirlərin keçirilməsində və sürətləndirilməsində qarşıya qoyulmuş strateji hədəflərin reallaşdırılması prosesləri

ləngidilməsin, azad iqtisadi fəaliyyət və sağlam rəqabət mühiti təmin olunsun, istehlak mallarının istehsalına və son istehsalçılara qədər çatdırılması proseslərinə çəkilən xərclərin optimallaşdırılması və nəticədə maksimum əlçatan qiymətlərin formalaşdırılması mümkün olsun. Bütün bu tədbirlərin nəticəsində, Azərbaycanda son illərdə əsas ərzaq istehlak malları üzrə ölkə əhalisinin tələbatının ödənilməsində müsbət tendesiyalar diqqət çəkir və bir sıra ərzaq məhsulları üzrə idxaldan asılılıq xeyli azaldılmışdır. Azərbaycanda dənli bitkilər və hevandarlıq məhsulların həcmi və istehsalı ilbəil artmaqdadır. Ət və ət məhsullarının geniş çeşiddə istehsalına və həcminin artırılmasına xüsusi diqqət göstərilir. Bu göstərici üzrə Azərbaycan əksər MDB ölkələrini geridə qoymuşdur. Azərbaycanda əhali tərəfindən geniş tələbata malik olan kərə yağının istehsalı üzrə də artım tendesiyaları diqqət çəkir. Bu mühüm qida məhsulunun istehsalında Azərbaycan Belarusdan geri qalsa da, adambaşına düşən məhsulun hesabına Rusiya və Ukraynanı üstələməyi bacarmışdır. Qeyd etmək lazımdır ki, son illərdə ölkəmizdə müxtəlif bitki yağlarının, xüsusilə günəbaxan yağlarının istehsalı üzrə bir neçə dəfə artıma nail olunmuşdur və adambaşına düşən istehlakın səviyyəsi 10-12 kiloqrama qədər artırılmışdır. Amma hələ bu tələb olunan səviyyə deyildir, belə ki, ölkəmizdə bitki yağlarına tələbat həddindən çoxdur və gündəlik istehlakda əsas qida məhsullarından biridir. Bu göstərici üzrə Azərbaycan bir neçə MDB ölkəsindən belə geri qalır. Məsələn günəbaxan yağı üzrə istehsal adambaşına Belarusda - 27,0 kq, Qazaxıstanda - 16,2 kq, Rusiyada isə – 25,1 kq-dır. Bu sahədə Azərbaycanın ixrac imkanı da kifayət qədər böyükdür və son illərdə həmin mal qrupu üzrə ixracın artımı buna misal ola bilər.

**Cədvəl 4**

**Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə əsas istehlak mallarının istehsalının dinamikası**

| | 2000 | 2002 | 2003 | 2004 | 2005 | 2010 | 2010-cu ildə 2000-ə %-lə | 2014 | 2014-ci ildə 2010-a %-lə | 2016 | 2016-cı ildə 2014-ə %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ət - cəmi, min ton | 108,9 | 120,8 | 124,4 | 127,6 | 130,7 | 246,6 | 226,4 | 278,1 | 110,3 | 285,0 | 102,5 |
| Kolbasa | 557,9 | 856,9 | 1172 | 1777 | 1914 | 2123 | 395,0 | 6637 | 3,1 d. | 13300 | 2 d. |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| məmulatları, ton | | | | | | | | | | | |
| Yağlılıq dərəcəsi 1-3% olan süd, min ton | ... | 487,2 | 489,6 | 492,0 | 494,0 | 672,6 | 138,0 | 840,1 | 124,9 | 880,5 | 104,8 |
| Yağlılıq dərəcəsi 6-29% olan süd, min ton | ... | 208,6 | 158,5 | 159,6 | 160,8 | 423,0 | 202,8 | 4671 | 110,4 | 6296 | 134,8 |
| Pendir və kəsmik, ton | 29830 | 32411 | 32610 | 33118 | 33451 | 43340 | 112,1 | 48100 | 111,6 | 49434 | 102,8 |
| Kərə yağı, min ton | 12,8 | 14,0 | 14,0 | 14,2 | 14,2 | 20,9 | 16,4 | 23,4 | 112,8 | 25,6 | 109,4 |
| Yeməli balıq məhsulları (balıq konservləri daxil olmaqla), min ton | 3,7 | 2,2 | 1,8 | 3,1 | 3,5 | 3,9 | 105,4 | 4,8 | 123,1 | | |
| Konservləşdirilmiş tərəvəz və meyvələr, min ton | - | 14.5 | 20,2 | 22,5 | 23,2 | 137,1 | 945,5 | 159,1 | 116,0 | 156,5 | 98,4 |
| Makaron məmulatları, ton | 400,0 | 982,6 | 849,1 | 985,4 | 3460 | 13030 | 33 d. | 9230 | 70,8 | 8400 | 88,1 |
| Bitki yağları, min ton | 10,9 | 25,7 | 54,4 | 46,0 | 64,1 | 88,7 | 9,8 d. | 106,9 | 120,5 | 82,3 | 77 |
| Qənnadı məmulatları, min ton | 22,9 | 37,0 | 38,4 | 40,6 | 42,9 | 43,5 | 189,9 | 50,1 | 115,2 | 59,5 | 118,8 |
| Qənd, min ton | 0,535 | 1,5 | 1,0 | 2,7 | 3,5 | 335,5 | 626 d. | 480 | 122,2 | 418,7 | 87,2 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 675,5 | 686,3 | 686,4 | 690,6 | 946,5 | 1162 | 172,0 | 745,6 | 64,2 | 1210 | 162,3 |
| Təbii çay, ton | 1523 | 5642 | 4975 | 8624 | 7477 | 10896 | 7,1 d. | 8039 | 73,8 | 9400 | 116,9 |
| Yodlaşdırılmış duz, ton | 1370 | 1351 | 2601 | 4050 | 4235 | 8496 | 6,2 d. | 32037 | 3,8 d. | 60627 | 189,3 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http//:www.azstat.org.**

Cədvəl 4-də verilmiş göstəricilərin və yeyinti sənayesi üzrə əsas istehlak mallarının dinamikasına əsasən qeyd etmək mümkündür ki, bir çox əhəmiyyətli ərzaq məhsulları üzrə son 10-15 ilə ərzində istehsalın səviyyəsi bir neçə dəfə artmış, ümumilikdə istehlak bazarının tənzimlənməsi və daha yüksək səviyyəyə qaldırılması potensialı formalaşdırmışdır. Ölkə əhalisinin əsas qida məhsullarına olan tələbatı səviyyəsinin yaxşılaşdırılması baxımından, ət üzrə istehsal 2000-2016-cı illərə ərzində 2,6 dəfə artmış və 2016-cı ilin yekununda ət istehsalının ümumi həcmi 285 min ton təşkil etmişdir. Ölkə əhalisinin gündəlik istehlakında istifadə olunan kolbasa

məmulatları istehsalı 2016-cı ildə 2014-cü ilə nisbətən 2 dəfə, 2000-ci ilə nisbətdə isə 23,8 dəfə artaraq 13,3 min səviyyəsinə çatmışdır.

Son illərdə istismara verlən müasir texnologiyalar əsaslı süd istehsalı müəssisələrin potensialı hesabına bu sahədə ölkə əhalisinin südə olan tələbatının ödənilməsində mühüm addımlar atılmışdır. 2016-cı ilin yekununda ümumi istehsalın həcmi 7176,5 min ton olmuşdur, müqayisə üçün bildirək ki, bu göstərici 2005-ci ildə cəmisi 654,8 min ton təşkil etmişdir. Pendir və kəsmik məhsulları ölkə əhalisinin qida rasionunda mühüm ərzaq məhsullarındandır. 2000-2016-cı illər ərzində bu məhsulların istehsalı 1,7 dəfəyə yaxın artmış və 2016-cı ilin yekununda ümumi pendir və kəsmik məhsulları istehsalının həcmi 49,4 min ton təşkil etmişdir.

**“İstehlak malları üzrə xarici ticarətin idarəetməsinin səmərəliliyinin artırılması yolları” adlı üçüncü fəsildə** xarici ticarətin idarəetməsinin təkmilləşdirilməsinin mexanizmi hazırlanmış, xarici bazarlarda istehlak mallarının rəqabətqabiliyyətliliyinin və bölüşdürülməsinin optimallıq səviyyəsi proqnozlaşdırılmış və ixrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi üzrə kompleks hesablamalar aparılmış, tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

Azərbaycan öz müstəqillliyini bərpa etdikdən sonra, dövlətin əsas vəzifələrindən biri də ölkənin iqtisadi və sosial sahələrinin inkişafının balanslaşdırılması, intensivləşdirilməsi, bu sahələrdə idarəetmə sisteminin formalaşdırılması ilə bağlı olmuşdur. 1995-2016-cı illər ərzində Azərbaycanda mərkəzi idarəetmə sisteminin, sahələr üzrə idarəetmə strukturlarının təkmilləşdirilməsi, yenilənməsi, onların fəaliyyətlərinin dünya təcrübəsi səviyyəsində tənzimlənməsi, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin problemlərinin həlli baxımından yenilənməsi diqqət çəkir. Bu dövrdə onlarla nazirlik, dövlət komitələri və agentliklər ləğv edilmiş, və ya birləşdirilmiş, yaxud yenidən formalaşdırılmışdır. Amma, ticarət, ticarət-iqtisadi və xarici ticarət fəaliyyəti üzrə mərkəzi idarəetmə strukturlarının hələ də optimallığına nail okunmamışdır və bu səbəbdən həmin istiqamətdə yaradılan nazirliklər, idarəetmə strukturları uzunmüddətli olmamış, ləğv edilmiş və sonda bir nazirliyin, yəni Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin tərkibinə daxil

edilmişlər. Ölkənin digər iqtisadiyyat sahələri üzrə nazirliklərin ləğv edilməsi və yenidən yaradılması prosesləri də diqqət çəkir.

Amma, 2016-cı ilin sonlarından başlayaraq ölkədə strateji yol xəritəsinin reallaşdırılması ilə əlaqədar olaraq, sosial-iqtisadi sahələr üzrə idarəetmə struktrularının daha da müasir tələblər səviyyəsində yenilənməsi, təkmilləşdirilməsi proseslərinə start verilmişdir. Belə ki, ölkə əhalsinin mühüm ərzaq və qeyri-ərzaq istehlak mallarına olan tələbatının yüksək səviyyədə ödənilməsi və qeyri-neft ixrac məhsullarının potensialının gücləndirilməsinin strateji hədəflər sırasına daxil edilməsi ilə əlaqədar olaraq geniş miqyaslı tədbirlərin həyata keçirilməsi proseslərinə başlanılmışdır. Bir çox istiqamətlər, həmçinin kiçik və orta sahubkarlığın inkişaf etdirilməsi, ağır sənaye sahələrinin inkişafının sürətləndirilməsi, maliyyə xidmətlərinin genişləndirilməsi, kənd təsərrüfatı sahələrinin elmi əsaslar üzərində inkişafının təşkili, xidmət sektorunun canlandırılması üzrə strateji hədəflərin yerinə yetirilməsi məqsədi ilə yeni idarəetmə strukturları, publik təşkilatlar və dövlət agentlikləri, dövlət korporasiyaları yaradılır. Xüsusi ilə, ixrac potensialının artırılması üçün əksər prosedurlar sadələşdiilmiş, bu sahədəki bütün əməliyyatlar avtomatlaşdırılmış, xarici firma və kompaniyalara internet vasitəsi ilə alqı-satqı mübadilələrinin həyata keçirilməsinə şərait yarsdılmış, iqtisadi proseslərə, ocümldən istehlak mallarının istehsalı və ixracı üzrə fəaliyyət göstərən xarici ticarət firmalarının fəaliyyətinə müdaxilələr minimuma endirilmiş, sahibkarlıq sahələrində yoxlamaların dayandırılması qərarı 2021-ci ilə qədər uzadılmış, ixrac prosedurları kifayət qədər sadələşdirilmiş, gömrük orqanlarında ixrac və idxal əməliyyatlarının çevikliyi, şəffaflığı təmin olunmuş, ixraca dəstək məqsədi ilə logistik mərkəzlər yaradılmış və ixracın stimullaşdırıcı mexanimzləri tətbiq olunmuşdur.

Xarici ticarətin maksimum səmərəli təşkilində, sosial-iqtisadi proseslərin şaxələndirilməsində və bu proseslərin daha yüksək səviyyədə idarəetmə sisteminin formalaşdırılmasında xarici mühit amilinin böyük əhəmiyyəti vardır. Bununla bağlı olaraq, beynəlxalq mübadilə proseslərində xarici ticarət əməliyytlarının iştirakçı ölkələr və onların təsərrüfat subyktləri, firma və kompaniyaları üçün qarşılıqlı

şəraitdə maraqlı və səmərəli olması üçün səylərin artırılması, sistemli və ardıcıl tədbirlərin görülməsi vacib şərtlərdəndir.

Qlobal iqtisadi transformasiyalar və tendensiyalar şəraitində xarici ticarətin idarəetmə sistemində əsas məqsədlər sırasında istehlak mallarının rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılması və bu sahənin ixrac potensialının artırılması, xarici bazarlarda möhkəmlənməsi, eyni zamanda idxalın strukturunun yaxşılaşdırılması dayanır. Bütün bunlar xarici bazarlarda istehlak mallarının möhkəmlənməsinin və bölüşdürülməsinin alternativ kanallarının axtarılmasını şərtləndirir. Fikrimizcə, bu mürəkkəb vəzifələrin öhdəsindən gəlmək üçün aşağıdakı istiqamətdə ataşdırmaların aparılması və tədbirlərin görülməsi daha məqsəduyğun olardı:

- bazarın təmin edilməsi strategiyasının hazırlanması;
- bazarda malların bölüşdürülməsi kanallarının hərəkət tsiklinin proqnozlaşdırlması və nəzarətin təşkili;
- rəqabət qabiliyyəti mühitinin obyektiv olaraq qiymətləndirilməsi;
- alıcılar üçün müqayisə etmək şərti ilə bir sıra istehlak mallarının rəqabət qabiliyyətliliyinin proqnoz-qiymətləndirilməsi;
- müqayisəli faydalılıq göstəriciləri nəzərə alınmaqla malın rəqabət qiymətinin hesabatının aparılması;
- xarici bazarda istehlak malları seqmentinin rəqabət vəziyyətinin faydalılığının müqayisəli qiymətləndirilməsi;
- malların bazarda davranışı əsasında onların rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi;
- marketinq alətlərinin potensialının hazırlanması (marketinq tədqiqatları, marketinq informasiya sistemi);
- məqsədli bazarın seqmentləri və firmanın əmtəə siyasəti;
- qiymət qoyma prosesi, satış siyasəti, fərdi satış, reklam fəaliyyəti, satışın stimillaşdırılması, ictimai fikirin formalaşdırılması və s.

**Cədvəl 6**

**Rəqabət mühitinin optimal qiymətləndirilməsinin hesablanması**

| Rəqabət gücünün tərkib | Xarici | Rəqib 1 | Rəqib 2 | Rəqib 3 | Rəqib 4 | Çəki |
|---|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| hissələri | firma | | | | | |
| Keyfiyyət / malların xüsusiyyətləri | 8/0.80 | 5/0.50 | 10/1.00 | 1/0.10 | 6/0.60 | 0.10 |
| Nüfuz / imic | 8/0.80 | 7/0.70 | 10/1.10 | 60.60 | 0.05 | |
| İstehsal imkanları | 2/0.20 | 10/1.00 | 4/0.40 | 5/0.50 | 1/0.10 | 0.10 |
| Texnologiyalardan düzgün istifadə (texniki yeniliklər) | 10/0.50 | 1/0.50 | 7/0.35 | 3/0.15 | 8/0.40 | 0.10 |
| Satış şəbəkəsi | 9/0.45 | 4/0.20 | 10/0.50 | 5/0.25 | 1/0.05 | 0.05 |
| Marketinq / reklam | 9/0.45 | 4/0.20 | 10/0.50 | 5/0.25 | 1/0.50 | 0.05 |
| Maliyyə vəziyyəti | 5/0.50 | 10/1.00 | 7/0.70 | 3/0.30 | 1/0.10 | 0.10 |
| Rəqiblə müqayisədə xərclər | 5/1.75 | 10/3.50 | 3/1.05 | 1/0.35 | 4/1.40 | 0.30 |
| Müşdərilərə xidmət | 5/0.75 | 7/1.05 | 10/1.50 | 1/0.15 | 4/1.60 | 0.15 |
| Optimal ümumi qiymət | 6.20 | 8.20 | 7.00 | 2.10 | 2.90 | 1.00 |

**Qeyd: müəllif tərəfindən hazırlanmışdır.**

İstehlak mallarının rəqabət mühitinin müəyyənləşdirilməsi zamanı, bazarda mövcud olan malların markaları, keyfiyyət göstəriciləri, topdansatış və pərakəndə ticarət şəbəkələrində bu malların əldə edilməsinin asan olması, satışdan sonrakı dövrdə isə həmin mallar üzrə servisin təşkili vacib şərtlərdəndir. Xarici ticarət üzrə rəqabət mühitinin optimal müəyyənləşdirilməsində malın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsinin funksional modelinə də geniş yer verilir. Müəyyən eyni tipli istehlak mallarının daha çox olduğu xarici bazarlarda kəmiyyət və keyfiyyət göstəriciləri üzrə proqnozlar əsasında rəqabət mühitinin müəyyənləşdirilməsi üçün funksional modeldən istifadə etməyə daha çox üstünlük verirlər. Bu modelin formalaşdırılmasının əsas ilkin şərtlərindən biri kimi həmin malların istehlak prosesləri ilə bağlı xarakterik cəhətləridir. Belə ki, həmin malların istehlakının aktuallığı və zəruriliyi, daxili və xarici bazarlarda onlara olan tələbatın intensivliyi və xüsusi ilə istehlakçıların tələblərinə uyğun keyfiyyət göstəricilərinin olması daha çox nəzərə alınır. Funksional modeli əsasən istehlak mallarının satışı bazarlarında müqayisəli qiymətləndirmə prinsipləri əsasında formalaşdırılır. Bu halda idxal və yaxud ixrac mallarının faydalılığının müəyyənləşdirilməsi üzrə müqayisəli göstəricilərin hesablanması verilən formula üzrə aparılır:

$$Ə_{m.g.} = \frac{İm}{Ym} \cdot 100, \quad \text{yaxud}$$

$$Ə_{m.g.} = \frac{Ym}{İm} \cdot 100,$$

$İ_m$ – idxal mallarının ən yaxşı nümunələrinin istehlak keyfiyyətləri;

$Y_m$ – yerli malların ən yaxşı nümunələrinin istehlak keyfiyyətləri.

Bu göstərilən qayda üzrə ixrac mallarının faydalılığının müəyyənləşdirilməsi üzrə müqayisəli göstəricilərin hesablanması həyata keçirilir.

Qeyd edək ki, funksional əlamətlər üzrə istehlak mallarının istehlakçıların tələblərinə uyğun faydalılığının müəyyənləşdirilməsində dünya təcrübəsindən çıxış etmək daha səmərəli hesab olunur. Belə ki, dünya təcrübəsində bu sahədə yanaşma əsasən istehlakçılar üçün hər hansı bir malın faydalılığının xüsusi çəkisinin əmsalının ekspertiza yolu ilə müəyyənləşdirilməsindən ibarətdir (E). Bu halda (E) malların istehlak xüsusiyyətlərinin ümumi çəkisinin 0-dan – 1-ə kimi olan məcmusi kimi baxılır.

Xarici ticarət fəaliyyətinin maksimum səmərəlilik prinsipləri əsasında təşkili milli ixracatçıların dünya bazarlarında möhkənlənməsinə əlavə potensial yaradır. İstehlak malları üzrə xarici ticarətin iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi üçün üç istiqamətdə tədbirlərin görülməsi vacibdir; a) müxtəlif ixrac əməliyyatlarının iqtisadi səmərəliliyinin hesablanması; b) idxal əməliyyatlarının iqtisadi səmərliliyinin hesablanması; c) ixrac-idxal əməliyyatları bir yerdə olmaqla onların iqtisadi səmərəliliyinin hesablanması. Bu məqsədlə idxal-ixrac əməliyyatlarının iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi üçün verilən metodikadan istifadə daha çox diqqət çəkir:

$$Q_{im} = Q_{sss} + X_{nq} + X_{sığ} + G_r + G_y + X_{sən}$$

burada $Q_{im}$ - ixrac malının tam daixli qiyməti;

$G_r + G_y$ - müvafiq gömrük rüsumu və gömrük yığımları;

$X_{nq} + X_{sığ}$, $X_{sən}$ – ixracatçının nəqliyyat xərcləri, ixrac yüklərinin sığortalanması və hər bir ixrac mal vahidi üzrə sənətləşdirmənin başa çatdırılması.

Qeyd edək ki, xarici ticarətdə mühüm məsələlərdən biri də ixrac olunan istehlak mallarından ölkəyə daxil olan xarici valyutanın yerli valyutada dəyərinin uçotunun dəqiq aparılması və ixrac olunmuş məhsulun yerli valyutada real qiymətinin

müəyyənləşdirilməsindən ibarətdir. Bunlar isə, milli valyutanın ölkəyə daxil olan valyutaya nisbətdə kursu ilə müəyyənləşdirilir.

**Ölkəmizdə istehlak malları üzrə ixrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin artırılması məqsədi ilə kompleks və sistemli yanaşmanın maksimum təmin edilməsi təklif olunur:**

- Bu məqsədlə ixrac və idxalın orta struktur göstəriciləri, yəni dəyişiklikləri, həmçinin bu əməliyyatlarda iştirak edən malların çeşidindəki dəyişikliklər və coğrafi strukturu ilə bağlı amillər və təsirlər mütləq şəkildə nəzərə alınmalıdır;

- Bundan əlavə, istehlak mallarının ixracının səmərəliliyi göstəricilərinin hesablanmasında və yüksəldilməsində ixrac olunan istehlak mallarının miqdarı, onların ixracından daxil olan valyuta gəlirləri, ixrac mallarının istehsalına sərf olunan xərclər, bu malların orta qiymətləri kimi göstəricilər xüsusi diqqət mərkəzində saxlanılmalıdır;

-İstehlak mallarının idxalı üzrə göstəricilərin səmərəliliyinin hesablanmasında isə idxal olunan malların miqdarı, onların valyuta dəyərləri, orta qiymətləri və topdansatış qiymətləri əsas götürülməlidir;

-Bu qeyd olunan tədbirlərin, yanaşmaların nəzərə alınması, göstərilən metodların tətbiqi, istehlak malları üzrə mühüm tədbirlərin sistemli və ardıcıl baxılması şərti ilə ölkəmizdə müasir dövrdə istehlak malları üzrə xarici ticarətdə idarəetmənin iqtisadi-təşkilati problemlərinin həllində əhəmiyyətli addımların atılması, istehlak malları üzrə xarici ticarətin idarəetməsinin səmərəliliyinin yüksəldilməsi, ayrı-ayrılıqda ixrac-idxal əməliyyatlarının iqtisadi səmərəliliyinin artırılması mümkün ola bilər və s.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Гусейнов С.Т. Прогнозная оценка конкурентоспособности и оптимальности распределения потребительских товаров на внешнем рынке. Bakı: Elmi əsərlər. AMEA-nın İqtisadiyyat İnstitutu. №2, 2010. -S.54-59

2. Гусейнов С.Т. Повышение экономической эффективности экспортно-импортных операций// М.: Экономика, социология и право. №6, 2010 г., с.5-8.
3. Гусейнов С.Т. Модели и методы управления внешней торговли потребительскими товарами. В кн: Система методов управления рыночными процессами. Москва-Баку: «Марс-Принт», 2010, с.205-230.
4. Гусейнов С.Т. Совершенствование механизма управления внешней торговли. Bakı: Elmi əsərlər. AMEA-nın İqtisadiyyat İnstitutu. №3, 2010. -S.73-80.
5. Гусейнов С.Т.Основные особенности осуществления внешнеэкономической деятельности Азербайджанской Республики. Bakı: Elmi əsərlər. AMEA-nın İqtisadiyyat İnstitutu. №4, 2012. -S.17-21.
6. Гусейнов С.Т. Система государственного регулирования мирохозяйственных связей в реализации конкурентных преимуществ//Киев: Инвестиции: О практике та ДОСВЫД. №22, 2012г., с.78-80.
7. Гусейнов С.Т. Методологические основы управления внешней торговли. В кн.: «Отраслевое управление рыночными процессами». Москва-Баку «»Марс-Принт». 2009г. с.290-327.
8. Гусейнов С.Т. Исследование деятельности субъектов рынка потребительских товаров по повышению уровня их конкурентоспособности//Научные труды конкурентоспособности// Научные труды АзНИИЭиОСХ. №2, 2010 г. с.81-93.
9. Гусейнов С.Т. Повышение экономической эффективности экспортно-импортных операций. Bakı: "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və azərbaycan modeli"., 04 iyun 2010-cu il. –S. 351-352.
10. Hüseynov S.T. The modern economic and organizational aspects of external trade management by consumer goods // USA, Philadelphia. ISJ Theoretical & Applied Science, Impact Factor JIF: 1.500; Impact Factor SIS (Texas, USA) : 0.912;

Impact Factor ICV=6.630. 2017-Issue: 09 Volume: 53 Published: 30.09.2017.- P.67-74.

11. Гусейнов С.Т. Особенности стратегии управления при выходе фирмы на внешний рынок конечных потребителей в современных условиях//Журнал «Научное обозрение», Россия, Москва. Импакт-фактор РИНЦ (пятилетний) – 0,808. (статья принята для публикации).
12. Гусейнов С.Т. Стратегические особенности управления внешней торговли потребительскими товарами в современных условиях // Jurnal "GEOSTRATEGİYA", Bakı, 2017, №05(41) (məqalə dərc üçün qəbul olunub).

**Гусейнов Сабухи Тахир оглы**

**Экономико-организационные аспекты управления внешней торговлей потребительскими товарами в современных условиях**

## РЕЗЮМЕ

В диссертационной работе последовательно раскрыты актуальность темы и степень научной разработанности проблемы, цель и задача исследования, предмет и объект исследования, теоретические и методологические основы диссертации, научная новизна и практическая значимость работы.

Основной круг задач, решаемые в диссертационной работе, следующие: исследовать теоретические взгляды на управления внешними рыночными процессами; выявлены особенности управления внешней торговлей потребительскими товарами; разработать методические приемы и методы управления внешней торговлей; определять ресурсное обеспечение перестройки структуры управления внешней торговлей; провести структурный анализ современного состояния системы управления внешней торговлей; исследовать деятельность субъектов рынка потребительских товаров по повышению уровня их конкурентоспособности; совершенствовать механизм

управления внешней торговлей; дать прогнозную оценку конкурентоспособность и оптимальность распределения потребительских товаров на внешнем рынке; определить пути повышения эффективности экспортно-импортных операций.

Huseynov Sabuhi Tahir

Economic and organizational aspects of Management in foreign trade for consumption products at modern environment

**SUMMARY**

The actuality of the theme and development level of the problem from the scientifec point of viev, the aim and position, subject and object of the research, theoretical and methodological basis, scientific novelty and practical essence have regularly been revealed in the dissertation vork.

The principles of the solved problems in the dissertation work are as follows: research of external views of the management of foreign market process, differentation of the management characteristics of consumer goods and foreingn trade, development methods of foreign trade management, determination of foreign trade structure management of resource provision, implementation of structural analysis of modern condition of foreign trade management, research of the encreasement of competitiveness. Activity of consumer doods markets activity, improvement of foreign trade management mechanism, competitiveness of cosumer goods in foreign market, and forecasting prices to optimum division; determination of encreasement ways effectivieness of import-export operations.